# Kim itaətdən çıxar, camaatdan ayrılar və bu hal üzərində ölərsə, cahiliyyə ölümü ilə ölmüş olur

Əbu Hureyra (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət etmişdir: "Kim itaətdən çıxar, camaatdan ayrılar və bu hal üzərində ölərsə, cahiliyyə ölümü ilə ölmüş olur. Kim də kor-koranə cahiliyyə bayrağı altında döyüşər, irqçilik üçün qəzəblənər və ya irqçiliyə dəvət edər yaxud da irqçiliyə yardım edər və bu əsnada öldürülürsə bu ölüm də cahiliyyə ölümüdür. Kim ümmətimə qarşı çıxıb, yaxşı olanını da, pis olanını da (ayırd etmədən) vurar, mömin olanlarına hörmət etməz, əhd sahibinə verdiyi sözü də yerinə yetirməzsə o, məndən deyildir, mən də ondan deyiləm".
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) əmr sahiblərinə itaətsizlik edən, onlara beyət etməyi qəbul edən İslam camaatından ayrılan, bu ayrılıq və itaətsizlik halında ölən kimsənin cahiliyyə əhli kimi öldüyünü xəbər vermişdir. Çünki onlar əmirə itaət etməyən və bir camaata bağlı olmayan, əksinə, bir-birləri ilə döyüşən ayrı-ayrı fiqələrə bölünən bir toplumdur. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, kim, haqq ilə batili ayırd edilmədiyi bir bayraq altında döyüşərsə, dini və haqqı dəstəkləmək üçün deyil, əksinə, qövmünə və ya qəbiləsinə təəssübkeşlikdən dolayı qəzəblənərsə, bəsirət və elm olmadan döyüşər və bu hal üzərə öldürülürsə, o kimsə cahiliyyə adəti üzərində ölmüşdür. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) həmçinin, ümmətinə qarşı çıxmağın, saleh olanı, facir olandan ayırd etmədən hər birini vurmağın, etdiyi əmələ fikir verməməyin və mömin bir kimsəni öldürməsinin cəzasından qorxmamağın, özləri ilə əhd bağlayan əmr sahiblərinə və ya kafirlərə verdiyi əhdi tutmamağın böyük günahlardan olduğunu xəbər vermişdir. Kim bunları edərsə, hədisdə keçən şiddətli təhdidə məruz qalar.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee